# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

Hazırda Qəbələ Futbol Akademiyasında, stadionlar kompleksində, Dəmiraparan çayı üzərindəki 10 aşırımlı 324 p/metrlik dəmir - beton körpüdə, "Aquapark" İstirahət Kompleksində, "Qolf klub" Kompleksində, hərbi xidmətə cağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin inzibati binalarında, "Qrand siti" Otelinin binasında, rayon məhkəməsinin və prokurorluğunun inzibati binalarında, Savalan kəndindəki "Raftinq Mərkəzi"ndə, "Laza Sərhəd Zastavası"nda, Nohur gölü ərazisindəki "Oteller Kompleksi"ndə, gömrük akademiyasında, "ASAN" Xidmətin Qəbələ Rayon Filialında, atçılıq mərkəzində, kənd təsərrüfatı idarəsinin inzibati binasında, Qəbələ şəhərindəki 100 yerlik uşaq bağçasının binasında, Qəbələ peşə məktəbinin yeni binası, Qəmərvan çayı üzərindəki 1 aşırımlı 36 p/metrlik dəmir-beton körpüdə, Dəmiraparan çayının sağ sahilində 1350 p/metrlik dəmir-beton bənddə, "Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidənqurulması" layihəsi çərçivəsində içməli su və kanalizasiya şəbəkələrinin tikintisi obyektlərində tikinti-quraşdırma, Seyid Əzim Şirvani, İsmət Qayıbov və İbrahim bəy Musabəyov küçələrində abadlıq işləri davam etdirilir.

Cari ilin ötən dövrü təhsil sahəsində də uğurlu olmuş, 2014-2015-ci dərs ilini rayonumuzun təhsil işçiləri yüksək nəticələrlə başa vurmuşlar. Bu il beş nəfər şagirdimiz ümumtəhsil məktəblərini qızıl medalla bitirmişdir. Tədris ilinin müvəffəqiyyət faizi 99,8 faiz, keyfiyyət göstəricisi isə 65,1 faiz olmuşdur.

Orta təhsil kursunu bitirən 1454 şagirdin 814 nəfəri ali məktəblərə qəbul olunmaq üçün sənəd vermişdir. Onların 467-nəfəri ali məktəblərə qəbul olunmuşdur. Ali məktəbə qəbul olunanların 50-nəfəri 600-dən yuxarı bal toplamışdır ki, bu da əvvəlki illə müqayisədə 23-nəfər çoxdur. Üç nəfər məzun isə ali məktəblərə qəbulda göstərdikləri yüksək nəticələrə görə Prezident təqaüdünə layiq görülmüşdür.

2015-ci ilin ötən dövrü ərzində məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində də xeyli iş görülmüşdür. Məktəblərə 204,570 manatlıq inventar, idman avadanlıqları, komputer dəstləri və s. alınaraq verilmiş, tədris korpuslarında cari təmir işləri aparılmışdır.

Təhsil müəssisələrinin fənn kabinetləri zənginləşdirilmiş, 141 adda 78,504 manatlıq dərslik gətirilərək müvafiq qaydada məktəb kitabxanalarına verilmişdir.

Tədrisin informasiyalaşdırılması sahəsində də işlər davam etdirilmişdir. Məktəblərdə mövcud kompüterlərin sayı 613-ə çatdırılmış, 53 tam orta məktəb internet şəbəkəsinə qoşulmuşdur.

Şagirdlərimiz zona və respublika olimpiadalarında, müsabiqə və yarışlarda xüsusi fəallıq göstərmişlər. Fənn olimpiadalarının respublika turu məktəblərimiz üçün xüsusilə uğurlu olmuş, şagirdlərimiz 1 qızıl, 1 gümüş və 3 bürünc medal qazanmışlar.

Məktəblərimiz 2015-2016-cı dərs ilinə 16076 nəfər şagirdlə başlamışdır. Onlardan 1546 nəfər I sinfə qəbul olunanlardır. Yeni tədris ilində 23 imkansız ailənin uşaqlarına məktəbli geyimi və dərs ləvazimatları verilmiş, 7 uşaq fərdi təhsilə cəlb olunmuşdur.

Rayonumuzda fəaliyyət göstərən 23 məktəbəqədər təhsil müəssisəsinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə 2015 ci ildə yerli büdcədən ayrılmış vəsaitə uyğun olaraq 12200 manatlıq yumşaq, 10800 manatlıq bərk invertar, 26550 manatlıq isə televizor və kompüter dəstlərii alınaraq rayonun məktəbəqədər təhsil müəssisələrinə verilmişdir. Yerli büdcə hesabına Mirzəbəyli kənd uşaq bağçası əsaslı təmir edilmiş, 100 yerlik şəhər uşaq bağçası və körpələr evinin tikintisi isə davam etdirilir.

Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən cari ilin 9 ayında müxtəlif mədəni-kütləvi tədbirlər keçirilmiş, tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuşdur.

Ümummilli liderin anadan olmasının 92-ci ildönümü ilə bağlı geniş iş planı tərtib olunmuş, mədəni-maarif müəssisələrində dəyirmi masalar, mühazirələr təşkil edilmiş, Heydər Əliyev Mərkəzində ulu öndərin siyasi fəaliyyətinin öyrənilməsi və təbliği məqsədilə silsilə tədbirlər keçirilmişdir.

Qəbələ Mədəniyyət Mərkəzində Ağdaş, Göyçay, İsmayıllı və Ağsu rayonlarının mədəni-maarif işçiləri üçün Azərbaycanın qeyri-maddi mədəni irsinin yerlərdə qorunması, təbliği və bərpası məqsədilə "Tarixi abidələr bu gün və sabah : mühafizə problemləri" mövzusunda seminar treninq keçirilmişdir.

Şəki şəhərində keçirilən "İpək Yolu VI Beynəlxalq Musiqi Festivalı"nda Nic Qəsəbə Yaradıcılıq Evinin "Çəngi" folklor qrupunun çıxışı maraqla qarşılanmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Milli Kulinariya Assosiasiyasının birgə təşkilatçılığı ilə bu il Şəkidə keçirilən şirniyyat festivalında 11 ölkədən, o cumlədən respublikamızın 21 şəhər və rayonundan gəlmiş şirniyyatçılar arasında Qəbələ şirniyyatçıları IV yerə layiq görülmüşdür.

Koreya Respublikasının Qyonqsanbuk əyalətində keçirilən "Qyonqcu İpək Yolu Mədəniyyət Festivalı"nda Qəbələ rayonu da təmsil olunmuşdur. Festival çərçivəsində keçirilən "Azərbaycan Günü" adlı konsert proqramında Qəbələnin mədəniyyət işçiləri də çıxış etmişlər.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə rayonumuzda ənənəvi keçirilən Qəbələ VII Beynəlxalq Musiqi Festivalında dünyanın 12 ölkəsinin tanınmış musiqiçiləri və musiqi kollektivləri iştirak etmişdir.

Azərbaycan Mədəniyyət Fondu, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası və Koreya Fondunun təşkilatçılığı, Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin dəstəyi ilə Qəbələdə "Koreya Kinosu Festivalı" keçirilmişdir.

Qəbələ Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Milli Kulinariya Assosiasiyasının dəstəyi ilə rayonumuzda "Qəbələ III Beynəlxalq Mürəbbə Festivalı" keçirilmişdir. Festivalda Azərbaycan, Türkiyə, Rusiya, İran, Serbiya, Qırğızıstan respublikalarının, eləcə də Azərbaycanın 29 şəhər və rayonunu təmsil edən mürəbbə və şirniyyat ustaları öz məhsullarını nümayiş etdirmişlər.

Qəbələdə hazırda 17 turizm istirahət kompleksi fəaliyyət göstərir. Onların arasında 4 otel beşulduzludur. Eyni vaxtda 2000 nəfəri qəbul etmək imkanı olan komplekslərə bu ilin 9 ayında 70 minə yaxın turist gəlmişdir.

Rayonun səhiyyə müəssisələrində 2015-ci ilin 9 ayı ərzində büdcə xərcləri 1.399.031 manat olmuş, dərman və sargı materiallarının alınmasına 283417.00 manat vəsait xərclənmişdir. Əhaliyə 164753.00 manatlıq pulsuz dərman verilmişdir. 9 ay ərzində 14890.00 manatlıq əsaslı təmir, 14898.00 manatlıq cari təmir işləri görülmüşdür.

Mərkəzi xəstəxanada ötən 9 ay ərzində stasionar xəstələrin sayı 2147 nəfər, cərrahi əməliyyatların sayı 122 olmuşdur.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplar qrafik üzrə 7544 nəfər planlaşdırılmış, onlardan 2015-ci ilin 9 ayı ərzində 3467 nəfər müayinəyə cəlb edilmişdir. Bu da 45.9 faiz təşkil edir. Müayinəyə cəlb edilən obliqat qrupun 1298 nəfəri təhsil, 764 nəfəri səhiyyə işçiləri, 1405 nəfəri isə digər sahələrdə çalışanlar (iaşə, ticarət, şadlıq evləri, bərbərxana işçiləri, konserv zavodu, ferma və s.) olmuşlar.

Rayon gigiyena və epidemiologiya mərkəzində cari ilin ötən dövrü ərzində profilaktik peyvəndlərdən hepatit «B»-yə qarşı 1039 , göyöskürək, difteriya və tetanusa qarşı 1173, qızılça, parotit, məxmərəyə qarşı 2356, polimelitə qarşı 4912 nəfərə peyvənd edilmişdir.

Yeni doğulan uşaqların vərəm əleyhinə peyvəndə cəlb edilməsi üçün 1620 doza peyvənd materialı alınaraq müalicə profilaktika müəssisələrinə verilmişdir.

Müalicə diaqnostika mərkəzində 2015-ci ilin 9 ayı ərzində konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 15123, endoskopiya kabinetində müayinələrin sayı 1112, EKQ müayinələrinin sayı 3345, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 342, stasionar şöbəyə daxil olan xəstələrin sayı 670, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 662 olmuşdur. Hemodializ şöbəsində 49 xəstədə 8353 hemodializ seansı aparılmışdır. Şüa diaqnostika şöbəsində ultrasəs müayinələrinin sayı 10078, kompüter tomoqrafiya müayinələrin sayı 843, rentgen müayinələrin sayı 8290, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 3983, kliniki laboratoriyada analizlərin sayı 6320 olmuşdur.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən "Talassemiyasız həyat naminə" proqramının layihəsi çərçivəsində mərkəzdə keçirilən qanvermə aksiyasında 200 nəfərdən çox könüllü iştirak etmiş və 174 nəfər qan vermişdir.

Rayon gənclər və idman idarəsi tərəfindən 2015-ci ilin 9 ayı ərzində 48 tədbir həyata keçirilmişdir. Bunlardan 26 tədbir gənclərlə iş sahəsini, 22 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

Ölkəmizin idman həyatı üçün əhəmiyyətli olan Bakı-2015 İlk Avropa Oyunlarının iştirakçıları arasında "Qəbələ İdman Klubu"nun idmançıları da öz güclərini sınamışlar. Belə ki, 6 idman növü üzrə (taekvondo, cüdo, boks, sambo, karate, atıcılıq) yarışa qatılan idmançılarımız boks üzrə 1 qızıl, karate üzrə 1 qızıl və 1 bürünc, sambo üzrə 2 gümüş medal qazanmışlar.

"Şahin" hərbi-idman oyununun Zaqatala rayonunda keçirilən zona birinciliyində, eləcə də Qəbələdə keçirilən "Gənc xilasedici və yanğınsöndürən" yarışının zona mərhələsində komandalarımız III yerlərə layiq görülmüşdür.

2015 - ci ilin ötən dövrü ərzində Qəbələ Olimpiya və İdman Kompleksinin xidmətlərindən 38368 nəfər-gün istifadə etmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 207 nəfər olmuşdur. Onların 73 nəfəri ödənişli əsasla, 134 nəfəri isə ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

Kompleksin xidmətlərindən ödənişsiz əsasla istifadə edənlər olimpiya idman növləri üzrə seksiyalarda məşğul olan idmançılardır. Burada sərbəst güləş, boks, cüdo və taekvando idman növləri fəaliyyət göstərir və 163 nəfər məktəbli idmanla məşğul olur.

Kompleksin ilin əvvəlindən 11 idman tədbiri keçirilmişdir ki, onların 5-i rayon, 6-sı respublika tədbirləri olmuşdur.

2015-ci ilin ötən dövrü ərzində ixtisaslı fəhlə kadrlarının hazırlanması sahəsində də xeyli işlər görülmüş və bu məqsədlə rayonumuzda fəaliyyət göstərən peşə məktəbini bu il 65 nəfər məzun bitirmişdir. Hazırda məktəbdə 6 qrup üzrə 107 nəfər şagird təhsil alır. Onlar çilingər-santexnik, traktorçu-maşinist, elektrik montyoru, tikiş avadanlıqlarının operatoru, kənd təsərrüfatı maşınlatının təmiri çilingəri və dərzi ixtisasları üzrə peşələrə yiyələnirlər.

(Ardı 6-cı səhifədə).